

# Məhvə sürüklənən ölkənin xilaskarı



**Dekabrın 12-si Ümummilli Lider Heydər Əliyevin anım günüdür. Azərbaycan xalqı Heydər Əliyevin xatirəsini daim uca tutur. Əlbəttə ki, bu da səbəbsiz deyil. Çünki müasir Azərbaycanın tarixi ulu öndər Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.**

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev bəşəri dəyərlər zəminində xalqın müstəqillik məfkurəsini reallığa çevirməklə müasir dövlətçilik sisteminin mükəmməl siyasi-ideoloji, iqtisadi və mənəvi dayaqlar sistemini yaradıb. Bu böyük şəxsiyyət bütöv bir tarixi mərhələnin yaradıcısı və nadir ictimai-siyasi fenomen idi. Ulu Öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gəlişi xalqımızın yaddaşında möhtəşəm tərəqqiyə dönüş, şərəfli bir tarixin başlanğıc günü kimi həkk olunub. 1969-1982-ci illərdə ölkənin sosial-iqtisadi göstəricilərinin təhlili göstərir ki, zəngin təcrübəyə, nadir istedada malik Heydər Əliyevin rəhbərliyi ilə respublikada istehsalın həcmi və məhsuldarlıq sürətlə yüksəlib, böyük nailiyyətlər qazanılıb. O dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə milli şüurun və milli özünüdərkin oyanışı baş verdi ki, bu da Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı idi. 1971-ci ildə Bakıda C.Naxçıvanski adına hərbi məktəbin yaradılması isə milli hərbi kadrların yetişdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Biz Ulu Öndərin bu uzaqgörən addımının Qarabağ müharibəsi zamanı nə qədər böyük önəm daşıdığının şahidi olduq.

1988-ci ildən başlanan və 1993-cü ilin ortalarına qədər baş verən proseslər göstərdi ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olmadığı müddətdə xalqımızın başına çox böyük müsibətlər gəldi, ermənilər tərəfindən torpaqlarımızın bir hissəsi işğal olundu, Azərbaycan məhv olmaq, parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı. Ona görə də xalqın təkidilə Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyun ayında ikinci dəfə hakimiyyətə gəldi. Çox ağır bir dövrdə dövlət idarəçilik sükanını öz əlinə alan Ulu Öndər cəsarəti, polad iradəsi, fədakarlığı nəticəsində bütün çətinlikləri dəf etdi, Azərbaycanı məhv olmaqdan xilas etdi, ölkədə sabitlik təmin olundu, qanunsuz silahlı birləşmələr ləğv edildi, Azərbaycan tərəqqi yoluna çıxdı. Ulu Öndər müstəqil Azərbaycan dövlətinin möhkəm təməlini, bünövrəsini yaratdı. Bu bünövrə Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ildən 2003-cü ilədək dahi liderimiz xalqımızın tərəqqisi, ölkəmizin güclənərək beynəlxalq miqyasda öz layiqli yerini tutması üçün titanik fəaliyyət göstərdi. Həmin illərdə görülmüş işlər sayəsində Azərbaycan böyük inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə daxili siyasətlə bağlı bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirdi, dünyada nüfuz sahibi oldu.

Bu gün müstəqil Azərbaycan məhz Heydər Əliyevin parlaq zəkasının bəhrəsidir. "Heydər Əliyev irsi elə bir zəngin xəzinədir ki, bu irsin hər zaman öyrənilməsi həyati əhəmiyyət kəsb edir. Ulu öndərin işıqlı yolunu layiqincə davam etdirən cənab Prezidentimiz İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan güclü, qüdrətli dövlətə çevrilib. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızın 30 illik işğalına son qoyuldu, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edildi. Biz fəxr edirik ki, öz ərazi bütövlüyünü bərpa edən müstəqil, güclü Azərbaycan Respublikasının vətəndaşlarıyıq. İnanırıq ki, qalib dövlətimiz cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə daha böyük nailiyyətlərə, zəfərlərə imza atacaq. Bu nailiyyətlərə isə Heydər Əliyev yolu daim işıq salacaq.

**Fatma YILDIRIM,**
**Milli Məclisin deputatı.**